### SUALLAR VƏ CAVABLAR…

Tutur sorğu-suala oğul ananı hər an,
Çoxlu suallar verir gah ordan, gah da burdan

Ay ana, niyə çaylar durmadan axır, axır,
Dəniz isə dayanıb yerində çalxalanır?

Ana, niyə ulduzlar göydən yerə tökülmür?
Gün çıxanda Ay qaçır, Ay doğanda Gün sönür?

Anacan, atam gedib ulduzların yanına?
Təyyarə ilə uçsam, çatarammı mən ona?

Nədən bu külək əsir gah sağa, gah da sola?
Niyə aparmır məni atam getdiyi yola?

Günlər elə hey ötür, niyə qayıtmır atam?
Sən məni ona götür, mən ki, yaxşı oğlanam

Bax, hamının anası, atası yanındadır,
Bəs mənim atam hanı, o hardadır, hardadır?”

Ah, bu “niyə, niyə”lər çox üzür gənc ananı,
Oğlunun qarşısında aciz qoyur ananı

Boğulub göz yaşında ana susur, dinməyir,
Oğluna bu yaşında cavab verə bilməyir

Necə desin körpəyə : “Atan yoxdur həyatda,
O gedəndən qaralıb mənim üçün həyat da

Atan gedən o yolun adı Zirvədir, oğlum,
O Zirvə Şəhidlikdir, ən uca yerdir, oğlum.

Vətən yaşasın deyə, Şəhid olubdur atan,
Necə anladım sənə, axı hələ uşaqsan

Böyüyüb anlayarsan bu sözləri, o zaman
Fəxr edərsən atanla, çünki o bir qəhrəman”.

Sözlər qəlbdən süzülür, dildə ilişib qalır,
Körpənin sualları hələ cavabsız qalır

Könlünü almaq üçün ana danışır, gülür,
Gecə keçir, dan yeri yavaş-yavaş sökülür

Laylayla ovundurur o, əziz körpəsini,
Asta səslə oxuyur öz həzin nəğməsini

### MÜƏLLİM

Əldə qələm tutmağı,
Yazmağı, oxumağı,
Söz qoşub danışmağı
Öyrədirsən, müəllim!

Dünyanı dərk etməyi,
Elmə həvəs-istəyi,
Şərəflə işləməyi
Öyrədirsən, müəllim!

Vətənə məhəbbəti,
Xalqıma sədaqəti,
Düşmənlərə nifrəti
Öyrədirsən, müəllim!

Çatmaqçün arzumuza,
Gələcək yolumuza
Günəştək işıq salan
Ziyalısan, müəllim!

Sənin çəkdiyin zəhmət,
Bəhrəsini verəcək,
Bizimlə yüksələcək
Sənin adın, müəllim!

### GÖZƏL BAKIM

Çox sevirəm səni mən,
Gəl, səni qucum, Bakım...
Ayrı düşsəm ölərəm,
Ay mənim gözəl Bakım!

Hamı, hamı heyrandır
Sənin gözəlliyinə,
Qibtə edənlər də var
Bu möhtəşəmliyinə...

Ürəyimsən, can Bakı,
Nə gözəlsən, ey şəhər!
Üzük qaşıdır sanki
Qədim İçəri Şəhər...

Odlu qəlbin isidir
Səni görən hər kəsi,
Könülləri isidir
İnsanların şən səsi...

Cənnət kimi məkandır
Gözəl Azərbaycanım,
Həm qoca, həm cavandır
Şəhərim, gözəl Bakım!

### QAYTAR ÖTƏN İLLƏRİMİ...

Günəş “söndü”, Ay da “dondu”,
Taleyimə "bayquş qondu",
Bu ayrılıq artıq sondur...
Qaytar ötən illərimi!

Sənə həsr etdiyim sözlər,
Sevincli, nəğməli günlər
Dəyərsizmiş sənin qədər,
Qaytar itən illərimi!

Məhəbbətimi duymadın,
Bu həyatı anlamadın,
Həssas qəlbim darmadağın,
Qaytar ötən illərimi!

Günəş hər an, daim yanar,
Ay da batar, yenə çıxar,
Sən ömrümü mənə qaytar!
Qaytar itən illərimi!

Məhv etdin arzularımı,
Qaraldaraq həyatımı,
Söndürdün nurlu dünyamı,
Qaytar ötən illərimi!
Qaytar itən illərimi!

### BİLMİRƏM...

Tənhalıq məni üzür,
Sənsiz qala bilmirəm...
Kədər məni bürüyür,
Sənsiz gülə bilmirəm...

Billmirəm haradasan,
Yaxında, uzaqdasan,
Şimalda, cənubdasan,
Səni tapa bilmirəm...

Nədən tərk etdin məni,
Pərişan etdin məni,
Necə unudum səni,
Yalqız qala bilmirəm...

Nə edim ki, dönəsən,
Yenə deyib-gülәsən,
Məni sevindirəsən,
Tək sevinə bilmirəm...

Xoşbəxt günlərim hanı...
İstəsəm də, zamanı,
Sənlə keçən o anı
Geri ala bilmirəm...

Ürəyim dərdli, dağlı,
Həyatım sənə bağlı,
Gözlərim qanlı, yaşlı,
Amma silə bilmirəm...

Yoxdur daha taqətim,
Gəl, bitsin bu həsrətim,
Çarədirsə ölməyim,
Heç ölə də bilmirəm...

### AĞLAMA, SEVGİLİM...

Eşqimiz birləşdirdi bizi bir vaxt əbədi,
Sədaqətə and içib qazandıq səadəti...

Məhəbbətlə bəzəndi evimiz, həyətimiz,
Xoşbəxt olduq, yaşadıq bu ömrü birgə, təmiz...

Sərvətimiz sevgimiz, bir də şirin söz oldu,
Həyatımız gülüşlə, zarafatla bol oldu...

Sənin hər kəlmən dadlı, baltək şirin olurdu,
Hətta naz-qəmzən belə mənə məlhəm olurdu...

İkilikdə dünyamız al-əlvan, rəngli idi,
Təkcə övlad həsrəti gizli bir nisgil idi...

Heyif ki, istisinə qızındığımız ocaq
Qısaltdı həyatımı, kəsdi, sanki bir bıçaq...

Can, sevgilim, ağlama, sən tökmə göz yaşını,
Axı silə bilmirəm mən sənin göz yaşını...

Əsl dost-qohum qoymaz zərifimi tək, darda,
Bilirəm ki, olarlar sənə dəstək həyatda...

İndi bağlar solsa da, hər yaz, hər bahar onlar
Yenidən çiçəklənib sənə dayaq olarlar...

Gözəl yarım, iş-güclə sən çox yorma özünü,
Ürəkdə daşıyırsan axı mənim özümü...

Nə qədər ki, sən varsan, ürəyin də vuracaq,
Ruhum qəlbində, səsim qulağında qalacaq...

Nədən yaşamır insan bir də ikinci dəfə,
Çatmaqçün hər arzuya, istədiyi hədəfə...

Qəmli gəzmə, Pambığım, istəməm bunu, haşa!
Daha bəsdir, ağlama, özünü qoru, yaşa...

Xəyalında varamsa, birgəyik yenə qoşa,
Sən Aydınsız ağlama, ölməz eşqimlə yaşa...



Zemfira Quliyeva